AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 41 (1441), 5 - 18 noyabr 2019-cu il*

*Qəzet 2001-ci ildən çıxır.*



## Qadın şahmatçılarımız Avropa çempionatında bürünc medal qazanıblar

Batumidə komandalar arasında Avropa çempionatında qadın şahmatçılarımız böyük uğura imza ataraq bürünc medal qazanıblar. Son turda Ermənistan yığmasına qarşı mübarizə aparan komandamızın heyətində Günay Məmmədzadə Lilit Mkrtçyanı məğlub edib. Ülviyyə Fətəliyeva Mariya Gevorqyan, Xanım Balacayeva Elina Danielyan, Gülnar Məmmədova isə Anna Sarqsyanla xalı yarı bölüblər.

Beləliklə, görüş Azərbaycan millisinin 2,5:1,5 hesablı qələbəsi ilə yekunlaşıb. Bununla da, Azərbaycanın qadınlardan ibarət yığması 27 ildən sonra (1992-ci ildə Avropa çempionatında bürünc medal) qitə çempionatında üçüncü yerə layiq görülüb.

Kişilərdən ibarət komandamızın sonuncu turda Sloveniya yığması ilə qarşılaşması 3:1 hesablı qələbə ilə başa çatıb. Yekun nəticəyə görə kişi şahmatçılarımız 11 xalla hazırda 5-ci pillədə qərarlaşıblar.

Qeyd edək ki, Azərbaycan şahmatında son aylar böyük uğurlar əldə edilib. Qrossmeysterimiz Teymur Rəcəbov dünya kubokunun sahibi olub. On dörd yaşlılar arasında təmsilçimiz Aydın Süleymanlı dünya çempionu titulunu qazanıb.

Xatırladaq ki, Azərbaycanın kişi şahmatçıları üç dəfə - 2009-cu, 2013-cü və 2017-ci illərdə Avropa çempionu adına layiq görülüblər. Komandamız 2011-ci ildə qitə çempionatının gümüş, 2007-ci ildə isə bürünc medallarını qazanıb.

## Akrobatika gimnastlarımızdan daha bir uğurlu çıxış

İsrailin Holon şəhərində akrobatika gimnastikası üzrə 29-cu Avropa çempionatı başa çatıb. Yarışın sonuncu günündə təmsilçilərimiz Azərbaycan gimnastikası tarixində ilk dəfə olaraq qitə birinciliyinin gənclər yaş qrupunda qızıl medal qazanıblar. Murad Rəfiyev və Daniel Abbasovdan ibarət cütlük temp hərəkətlərinin finalında 28,600 xalla bütün rəqiblərini geridə qoyaraq Avropa çempionu adına layiq görülüb. Bununla da gimnastlar tam bir medal dəstini əldə ediblər. Belə ki, onlar balans hərəkətlərində bürünc, çoxnövçülükdə isə gümüş medal qazanıblar. Daha bir medalı komandamızın aktivinə böyüklərin yarışında çıxış edən Abdulla Əl-Məşayxi və Ruhidil Qurbanlıdan ibarət qarışıq cütlük yazdırıb. Gimnastlar temp hərəkətlərinin final mərhələsində 28,680 xalla bürünc medala layiq görülüblər. Sonuncu Avropa Oyunlarının mükafatçıları yarışın ikinci günündə balans hərəkətlərinə görə bürünc medal qazanıb, çoxnövçülükdə isə beşinci olublar. Böyüklərin yarışında Seymur Cəfərov və Murad Əkbərov cütlüyü isə medalın bir addımlığında mübarizəni dayandırıblar. Balans hərəkətlərinin finalında 28,550 xal toplayan gimnastlarımız dördüncü yerdə qərarlaşıblar. Onlar çoxnövçülükdə beşinci, temp hərəkətlərinin finalında isə altıncı olublar. Beləliklə, ümumilikdə 5 medal qazanan millimiz akrobatika gimnastikası üzrə Avropa çempionatını uğurla başa vurub.




## Cüdoçularımız Tokio Olimpiadasına lisenziya xarakterli yarışda iştirak ediblər

Avstraliyanın Pert şəhərində cüdo üzrə Okeniya açıq turniri keçirilib.

Tokio-2020 Yay Olimpiya Oyunlarına lisenziya xarakterli yarışda 66 ölkədən 310 (160 kişi, 150 qadın) cüdoçu qalib adı uğrunda mübarizə aparıb. Beynəlxalq yarışda 9 cüdoçu ilə təmsil olunan komandamız 1 gümüş və 1 bürünc medal qazanıb. Yarışın ilk günü təmsilçimiz Nicat Şıxəlizadə gümüş medala sahib olub. 66 kq çəki dərəcəsində mübarizə aparan Nicat Böyük Britaniya, Avstraliya, Braziliya və Almaniya cüdoçularına qalib gələrək finala çıxıb. Həlledici görüşdə ispaniyalı Martin Qaiteroya məğlub olan N.Şıxəlizadə "Okeaniya Open" turnirində 2-ci yeri tutub.

Tokio Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyan Okeaniya açıq turnirində gümüş medal qazanan Nicat Şıxəlizadə aktivinə daha 500 xal yazdırıb.

Komandamıza bürünc medalı isə 81 kq çəki dərəcəsində çıxış edən Murad Fətiyev qazandırıb. Mübarizəyə 1/32 finaldan başlayan təmsilçimiz ilk mərhələdə Fransa, növbəti görüşdə isə uruqvaylı idmançını üstələyib. Lakin gənc cüdoçumuz 1/8 finalda braziliyalı idmançıya məğlub olub. Bürünc medal uğrunda təsəlliverici görüşə çıxan idmançımız bu mərhələdə Avstriya cüdoçusuna qalib gəlib. Murad Fətiyev həlledici görüşdə italiyalı Andrea Regisə qalib gələrək bürünc medala sahib çıxıb.

## Olimpizm

### XXXII Yay Olimpiadasının ev sahibi digərlərindən fərqlənəcək

Olimpiadaya ikinci dəfə ev sahibliyi edən Yaponiyada 42 idman obyektindən istifadə olunacaq. Bu da rekord göstəricidir.

"Gündoğar" ölkə Olimpiya Oyunlarına artıq ikinci dəfədir ki, ev sahibliyi edir. Xatırladaq ki, ilk dəfə burada olimpiada 1964-cü ildə təşkil edilib. Yaponiyanın paytaxtında keçirilən XVIII Yay Olimpiya Oyunlarında dünyanın 93 ölkəsindən 5151 idmançı iştirak edib. Olimpiya alovunu Yesinori Sakai yandırıb, Takasi Ono isə Olimpiya andı içib.

XXXII Yay Olimpiadasına ev sahibliyi üçün ərizələrin təqdimatına 2011- ci ilin sentyabr ayında start verilib. İlkin mərhələdə Bakı və Doha şəhərlərinin də iştirak etdiyi namizədlik mübarizəsində 3 şəhər finala vəsiqə qazanıb. Beynəlxalq Olimpiya Komitəsinin (BOK) Buenos-Ayres şəhərində keçirilən 125-ci sessiyasında Madrid, İstanbul və Tokio şəhərlərin arasından sonuncu namizəd qalib elan edilib. Qeyd edək ki, ev sahibliyi uğrunda mübarizədə Madrid şəhəri üçüncü, İstanbul beşinci, Tokio isə ikinci dəfə idi ki, iştirak edirdi.

XXXII Yay Olimpiya Oyunlarının məşəl estafetinə martın 12-də olimpiadanın beşiyi olan Yunanıstanın Olimpiya şəhərində start veriləcək. Olimpiadanın açılış mərasimi iyulun 24-də keçiriləcək. Dünyanın 205 ölkəsindən 12500 idmançının iştirak edəcəyi olimpiadaya avqustun 9-da yekun vurulacaq.

Tokio-2020 Olimpiadasına indiyə qədər 13 milyard dollar vəsait xərclənib. Olimpiadada idman yarışlarının təşkili üçün İmperator sarayı da daxil olmaqla 42 idman qurğusundan istifadə ediləcək. Bu qurğulardan 8-i yeni inşa olunub. 24 idman obyektində əsaslı bərpa işləri aparılıb ki, onlardan 5-i Tokio-1964 Olimpiadasından irs qalıb. 10 idman qurğusu isə sonrakı dövrdə istifadə üçün nəzərdə tutulan müvəqqəti qurğulardır.

### Tokio ev sahibi kimi nümunə olacaq

Beynəlxalq Olimpiya Komitəsi (BOK) hesab edir ki, Tokio ev sahibi kimi büdcədən az vəsait sərf etmək və inşa edilən qurğulardan səmərəli istifadəyə görə digər şəhərlərə nümunə sayıla bilər. Bunun üçün elə təkcə axırıncı Olimpiya oyunlarını xatırlamaq kifayətdir. Rio-2016 Olimpiadasının idman meydançaları ağrılı reklamı xatırladır. XXXI Yay Olimpiya Oyunlarının keçirildiyi Rio-de-Janeyroda vəziyyət acınacaqlıdır. Milyardlarla vəsait xərclənən idman obyektləri boş və istifadəsiz qalıb. Hazırda ölkələr və şəhərlər Olimpiya Oyunlarına ev sahibliyi etməkdən müəyyən mənada çəkinirlər. Yaponiyada da bir qisim əhali olimpiadanın təşkilinə etiraz etsə də, çox güman ki, Tokio bu tendensiyanı dəyişən şəhər kimi tarixə düşəcək.

Yaponlar olimpiada üçün ilkin mərhələdə 7 milyard dollar nəzərdə tutsalar da, indi həmin məbləğ 12,6 milyard dollar təşkil edir. Ümumilikdə, olimpiadaya qədər ümumi məbləğin 20 milyard dollar təşkil edəcəyi gözlənilir. Hazırda biletlərin satışı göstərir ki, tamaşaçı tribunaları Pxençxan-2018 Olimpiadasında olduğu kimi boş qalmayacaq.

## Anons

**Fazil Hadıbəyov:** "Həyatda heç nə asan əldə olunmur"

Səh. 3

***Tanqonun ritmləri altında...***

Səh. 6

**UEFA Avropa Liqası** (IV tur)

**APOEL - "Qarabağ"**

(Kipr) (Azərbaycan)

*7 noyabr. "Neo GSP" stadionu*

*Saat 21:55.*

# Faiq Qarayevə 2-ci dərəcəli "Əmək" ordeni təqdim olunub

***Azərbaycan Voleybol Federasiyasının (AVF) birinci vitse-prezidenti Faiq Qarayevin Prezident İlham Əliyevin Sərəncamına əsasən təltif olunduğu 2-ci dərəcəli "Əmək" ordeninin təqdim edilməsi ilə bağlı tədbir keçirilib.***



Tədbirdə çıxış edən AVF-nin prezidenti Cavid Qurbanov 60 illik yubileyini qeyd edən Faiq Qarayevin həyatını voleybola həsr etdiyini deyib. Bildirib ki, o, Azərbaycan ilə yanaşı, Rusiyada və Türkiyədə də məşqçilik edib. Daha sonra dövlətimizin başçısı İlham Əliyevin dəvəti ilə ölkəmizə gəlib və bir sıra uğurlara imza atıb. Onun rəhbərliyi ilə bir çox tanınmış idmançılar yetişiblər. Faiq Qarayev bu gün bütün dünyada tanınan istedadlı voleybol mütəxəssisidir.

Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə AVF-nin birinci vitse-prezidenti F.Qarayevin "Tərəqqi" və "Şöhrət" ordenlərinə layiq görüldüyünü diqqətə çatdıran C.Qurbanov yubilyara cansağlığı və uğurlar arzulayıb.

Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə ölkəmizdə voleybol idmanının inkişafında və qazanılan nailiyyətlərdə Faiq Qarayevin mühüm rolunu vurğulayaraq deyib: "O, Azərbaycanın ən öndə gələn idman xadimlərindən biridir. Onunla eyni gündə "Şöhrət" ordeni ilə təltif olunmuşuq. Nailiyyətlərini bütün dünyada bilirlər. Beynəlxalq Olimpiya Komitəsi qadınlar arasında idmanın inkişafına verdiyi töhfələrə görə Faiq Qarayevi xüsusi diplomla mükafatlandırıb. Ümumiyyətlə, Faiq Qarayevin uğurları böyükdür".

Gənclər və İdman nazirinin müavini İsmayıl İsmayılov təcrübəli mütəxəssisi nazir Azad Rəhimovun adından təbrik edib və onun karyerasından, qazandığı uğurlardan danışıb.

Sonra Faiq Qarayevin 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 17 oktyabr tarixli Sərəncamı oxunub.

AVF-nin prezidenti C.Qurbanov 2-ci dərəcəli "Əmək" ordenini Faiq Qarayevə təqdim edib.

AVF-nin vitse-prezidenti Vaqif Əliyev, veteran voleybolçu Şəfəq Kərimova və kişi voleybolçulardan ibarət Azərbaycan millisinin baş məşqçisi Fərid Cəlilov da çıxışlarında yubilyarı təbrik edib, ona uğurlar arzulayıblar.

Sonra AVF-nin Rəyasət Heyətinin qərarı ilə federasiyanın əməkdaşlarının və veteran voleybolçuların bir qrupu yubileyləri münasibətilə mükafatlandırılıb. Onlara diplom və pul mükafatları təqdim olunub.

AVF-nin birinci vitse-prezidenti F.Qarayev fəaliyyətinin Azərbaycan Prezidenti tərəfindən yüksək qiymətləndirilməsindən və 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif olunmasından böyük qürur hissi keçirdiyini bildirib və buna görə minnətdarlığını ifadə edib. O, bu mükafatı bütün komandanın uğuru kimi dəyərləndirib. Faiq Qarayev Prezident İlham Əliyevin yubiley münasibətilə onu şəxsən təbrik etməsinin həyatının ən unudulmaz anlarından biri olduğunu diqqətə çatdırıb.

Qeyd edək ki, F.Qarayevin rəhbərliyi altında qadın voleybolçulardan ibarət Azərbaycan millisi ilk dəfə 1994-cü ildə dünya çempionatının final mərhələsində çıxış edib. Onun rəhbərliyi ilə "Azərreyl" komandası 2002-ci ildə Top Komandalar Kubokunun qalibi olub. Həmçinin komandamız 4 dəfə dünya, 8 dəfə isə Avropa çempionatının final mərhələsində mübarizə aparıb.

# Qrodnoda bir qızıl və bir gümüş mükafat

Belarusun Qrodno şəhərində ikiqat Olimpiya çempionu Aleksandr Kurloviçin xatirəsinə həsr olunmuş ağırlıqqaldırma üzrə nüfuzlu beynəlxalq "Alexander Cup" turniri keçirilir. Tokio Olimpiya Oyunlarına gümüş səviyyəli lisenziya xarakterli olan bu yarışda 18 ölkədən 80 atlet medallar uğrunda mübarizə aparır. Ölkəmizi qadınların yarışında Boyanka Kostova, kişilərin mübarizəsində isə Nailxan Nəbiyev təmsil edib. İlk yarış günündə Boyanka Kostova 59 kq çəki dərəcəsində qüvvəsini sınayıb. Atletimiz ümumilikdə 215 kiloqram (95 kq +120 kq) nəticə göstərərək turnirin qalibi olub.

Digər atletimiz Nailxan Nəbiyev isə yarışda 96 kq çəki dərəcəsində qüvvəsini sınayıb. O, toplam 326 kq (145+181) nəticə ilə gümüş medala sahib çıxıb.




## *Sərbəst güləşçilərimiz U-23 dünya çempionatını 5 medalla başa vurublar*

Macarıstanın paytaxtı Budapeştdə keçirilən 23 yaşadək idmançılar arasında dünya çempionatında sərbəst güləşçilərin yarışlarına yekun vurulub. Azərbaycan millisi çempionatda 5 medal qazanıb. Pəhləvanlarımızdan Turan Bayramov (65 kq) bütün rəqiblərini qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. "Zenit" İdman Cəmiyyətinin yetirməsi olan Turan Bayramov səkkizdəbir finalda kanadalı həmkarını məğlub edib. Həmyerlimiz moldovalı rəqibinə də qalib gələrək yarımfinala yüksəlib. Fransa təmsilçisi ilə qarşılaşma gərgin mübarizə şəraitində keçib. Turan ilk hissəni 0:1 geridə başa vursa da, ikinci yarıda rəqibi əks-fəndə salaraq qələbə qazanıb və debüt etdiyi U-23 dünya çempionatının finalına vəsiqə qazanıb. Həlledici görüşdə T.Bayramovun rəqibi Yaponiya təmsilçisi Takuma Taniyama olub. Rəqibini məğlub edən güləşçimiz dünya çempionatının qızıl medalına sahib olub. Komandamıza gümüş medalları isə Abubakr Abakarov (79 kq) və Hacımurad Məhəmmədsəidov (86 kq) qazandırıb. "Zenit" İC-in digər yetirməsi Əfqan Xaşalov (57 kq) isə çempionatda bürünc medala layiq görülüb. Komandamızın aktivinə növbəti bürünc medalı isə 70 kq çəki dərəcəsində çıxış edən Davud İbrahimov yazdırıb.



Sərbəst güləşçilərimiz bu nəticə ilə dünya üçüncüsü olub. Qeyd edək ki, 1 qızıl, 2 gümüş və 2 bürünc medal 2017-ci ildən bu yana keçirilən analoji yarışlarda sərbəst güləş yığmamızın ən yaxşı nəticəsidir.

## *Pəhləvanlarımız Dağıstanda uğurla yarışıblar*

Dağıstanın Xasavyurt şəhərində Arsenali Murtuzəliyevin xatirəsinə yeniyetmələr arasında sərbəst güləş üzrə beynəlxalq turnir keçirilib. Yarışda məşqçilər Namiq Quliyev və Əşrəf Əliyevin rəhbərliyi altında ölkəmizi təmsil edən sərbəst güləşçilərdən beşi fəxri kürsüyə qalxıb. Ramik Heybətov (55 kq), Sabir Cəfərov (65 kq) və Cəbrayıl Hacıyev (71 kq) gümüş medal qazanıblar. Rəşid Sadıxhacıyev (80 kq) və Saqadulla Ağayev (92 kq) isə bürünc medalı boyunlarından asıblar.

# Karateçilərimiz Avropa çempionatından 8 medalla qayıdıblar

Macarıstanın Monor şəhərində vado-kai karate üzrə 47-ci Avropa çempionatı keçirilib. 16 ölkədən 600-dən çox idmançının iştirak etdiyi yarışda Azərbaycan karateçiləri də mübarizə aparıblar. Qitə çempionatında ölkəmizi "Azərbaycan Vado-Ryu Karate-do" klubunun 10 idmançısı təmsil edib. Avropa Vado-Kai Karate-Do Federasiyasının Azərbaycandakı rəsmi nümayəndəsi, Əməkdar məşqçi Gündüz Mahmudovun rəhbərliyi altında Macarıstana yollanan karateçilərimiz çempionatda uğurla çıxış ediblər. Təmsilçilərimiz müxtəlif yaş kateqoriyaları üzrə fərdi yarışlarda 2 qızıl, 4 gümüş və 1 bürünc medal qazanıblar. 14-15 yaşlı idmançıların mübarizəsində çıxış edən karateçimiz Musa Məmmədov 63 kq çəki dərəcəsində qızıl medala sahib çıxıb. Komandamızın digər üzvü Fərid Ağayev (-76 kq) isə 16-17 yaşlı idmançıların yarışında fəxri kürsünün ən yüksək pilləsində yer alıb.

Yığmamızın digər üzvü Rəsul Abbasov (-57 kq) 14-15 yaşlı idmançılar arasında yalnız finalda uduzaraq ikinci yeri tutub. Komandamıza digər gümüş medalları 16-17 yaşlı idmançılar arasında yarışan Abbas Dadaşov (-68 kq), Adil Quliyev (-76 kq) və 18-21 yaşlı idmançılar arasında çıxış edən Nuri Əliyev (-68 kq) qazandırıb. Digər təmsilçimiz Kənan Babayev (-68 kq) isə 16-17 yaşlı idmançıların mübarizəsində bürünc medala sahib olub.

Karateçilərimiz komanda yarışlarında da uğurla çıxış ediblər. Heyətində Kənan Babayev, Fərid Ağayev, Abbas Dadaşov və İlknur Əlipoladovun yer aldığı komandamız 16-17 yaşınadək idmançılar arasında birinci yeri tutub. Karateçilərimiz ilk görüşdə ev sahibləri olan Macarıstan komandasına qalib gəliblər. Növbəti mərhələlərdə İtaliya və Şotlandiya yığmalarından da üstün olan komandamız finala vəsiqə qazanıb. Həlledici görüşdə güclü Almaniya millisinə də qalib gələn




yeniyetmə karateçilərimiz çempionatın komanda yarışlarının qızıl medalına sahib çıxıblar.

Qeyd edək ki, Macarıstana yollanan Azərbaycan yığmasının tərkibində bu təşkilatın kumite üzrə baş məşqçisi Namiq Pirverdiyev də yer alıb. Komandamızın heyətində Macarıstana yollanan milli dərəcəli hakimimiz Vidadi Mahmudov isə 47-ci Avropa çempionatında ədaləti qoruyub.

## *Azərbaycan millisinin uğurlu İjevsk sınağı*

Rusiyanın İjevsk şəhərində 23 yaşınadək cüdoçular arasında Avropa birinciliyi keçirilib. 33 ölkədən 235 idmançının (135 kişi, 100 qadın) yarışdığı mötəbər birincilikdə Azərbaycan millisi 9 cüdoçu ilə təmsil olunub. Yarışın ilk günü milli komandamız aktivinə bir medal yazdırıb. 66 kq çəki dərəcəsində mübarizə aparan gənc cüdoçumuz Nurlan Osmanov Belarus, Macarıstan, İsveçrə və İtaliyadan olan rəqiblərini məğlub edərək finala çıxıb. Həlledici qarşılaşmada meydan sahibi, rusiyalı Murad Çopanova



uduzan Nurlan qitə birinciliyinin gümüş medalını qazanıb. Yarışın ikinci günü Azərbaycan millisinin üzvü Rəşid Məmmədəliyev bütün rəqiblərinə qalib gələrək qitə çempionu olub. 73 kq çəki dərəcəsində çıxış edən cüdoçumuz bolqarıstanlı Rumen Radev, monteneqrolu Marko Quşiç, almaniyalı Şamil Zavbatırov və moldovalı Petru Pelivanı üstələyərək, finalda rusiyalı Ayub Xajaliyevlə qarşılaşıb. Rəşid Məmmədəliyev güclü rəqibi üzərində təmiz qələbə qazanaraq karyerasında ilk dəfə Avropa çempionu olub.

# Azərbaycan kuboku yarışlarının qalibləri müəyyənləşib

"Şüa" İdman-Sağlamlıq Kompleksində stolüstü tennis üzrə Azərbaycan kuboku yarışları keçirilib. Birincilikdə 60 idmançı komanda, şəxsi, qoşa və qarışıq qoşa yarışlarında mübarizə aparıb. Kişilərin komanda yarışlarında "Təhsil-1", qadınlar arasında isə "Sumqayıt-1" kollektivləri birinci olublar. Şəxsi yarışlarda Nəzakət Qarayeva, İbrahim Ansari, qoşa yarışlarda Fatimə Cəfərova-Mərziyə Nurmətova və Nurlan Həsənov - Xəyyam Həşimli qalib olublar. Qarışıq qoşa yarışlarda Emin Məmmədov-Nəzakət Qarayeva ilk pillədə qərarlaşıblar.



Yarışın qaliblərinə diplom, kubok və hədiyyələr təqdim edilib.

Yubiley -65

# Fazil Hadıbəyov: “Həyatda heç nə asan əldə olunmur”

*Müdriklərdən biri deyib ki, həyatda çətinliklərlə qarşılaşarkən hər zaman iki seçimin olur. Bunlardan birində ya çətinlikləri, digərində isə çətinlikləri dəf etmək üçün özünü dəyişdirməlisən. Məhz belə olan halda insan şəxsiyyət kimi formalaşır, digərlərinə örnək göstərilir. Həyatda heç də hamı belə vəziyyəti öz xeyirinə dəyişə bilmir. Lakin haqqında bəhs etdiyimiz insan çoxsaylı çətinlikləri dəf edərək, müdrikliyə gedən yolda böyük uğurlara sahib olub. Söhbət, “Zenit” Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyinin sədri, Əməkdar bədən tərbiyəsi və idman xadimi, Azərbaycan Milli Olimpiya Komitəsinin üzvü Fazil Hadıbəyovdan gedir. Tanınmış mütəxəssis bu yaxınlarda 65 yaşını qeyd etdi. Hər zaman Azərbaycan idmanının və Olimpiya Hərəkatının inkişafında müstəsna rolu olan idmançıları, məşqçi və mütəxəssisləri diqqətdə saxlayan “Olimpiya dünyası” qəzeti Fazil müəllimlə müsahibəni çoxsaylı oxucularımıza təqdim edir.*



***- Fazil müəllim, eşitdiyimizə görə, maraqlı həyat yolunuz olub. Həyatın hər sınağı ilə rastlaşmısınız. İstərdik ki, həmin yola bir qədər nəzər salaq.***

- 1954-cü il noyabrın 1-də Qazaxıstan Respublikasının Cambul vilayətinin Çu şəhərinin yaxınlığındakı Yeniyol kəndində anadan olmuşam. Bunun da əsas səbəbi 1937-ci ildə ailəmizin, babamın, nənəmin, atamın Qazaxıstana sürgün olunmasıdır. Babam və atam danışırdılar ki, 1937-ci ildə bizi ailə üzvlərimizlə birlikdə, Masallıdan Bakıya gətirdilər. Hamımızı Bayıl həbsxanasına saldılar. Həmin vaxt NKVD-də və Bayıl həbsxanasında bizə olmazın zülmləri verdilər. Babam və atam danışırdılar ki, yalandan boynumuza qoymaq istəyirdilər ki, guya biz, Sovetlər Birliyini devirmək, ixtişaşlar yaratmaq istəmişik. Bu yalanların heç birini boynumuza qoya bilməsələr də, bizi Sovet ölkəsinin “düşməni” kimi, mühakimə etdilər. Sonra bizi Dəniz vağzalına gətirib, gəmiyə mindirdilər. Burada hər bölgədən olan çoxlu insanlar vardı. Elə fikirləşirdik ki, bizi dənizdə batırmaq istəyirlər. Yolda çox dəhşətli hadisələr



oldu. Dəfələrlə az qaldı ki, gəmilər Xəzər dənizində batsın. Heç bir şəraiti olmayan gəmidə, çətinliyə, aclığa, susuzluğa, səfalətə dözə bilməyən adamlar dünyalarını dəyişirdilər. Ölənlərin meyidlərini əsgərlər dənizə atırdılar. Bizi Türkmənistan Respublikasının Krasnavodsk şəhərinə gətirdilər. Krasnovodskda insanları mal daşıyan vaqonlara doldurdular. Bizi gətirib, səhra kimi bir yerdə düşürtdülər. Orada at və mal-qara tövlələri vardı. Dedilər ki, siz bundan sonra burada yaşayacaqsınız. Öyrəndik ki, bu yerlər Qazaxıstan Respublikasının Cambul vilayətinin Çu deyilən ərazisidir. Sağ olsunlar qazaxlar, burada özümüzə şərait yaratmaq üçün bizə, sağ qalan insanlara əllərindən gələn köməklikləri etdilər. Təbii ki, bunlar babamın və atamın danışdıqlarıdır. Bir sözlə, böyük keşməkeşli, çətin məqamlar, məşəqqətli, faciəli illər olub. 1962-ci ildə sürgün olunan insanlara bəraət verilsə də, bir çox insan elə orada qalıb, yaşayası oldu. Lakin bəzi ailələr yenidən Azərbaycana qayıtdılar. Bizim ailə də doğma yurda, Masallıya qayıtdı.

Mənim babam Mikayıl kişi, atam Məmmədəli kişi orada böyük hörmət qazanmışdılar. Babam savadlı insan idi. Atam Məmmədəli kişi Böyük Vətən müharibəsində, Kursk ətrafındakı döyüşlərdə yaralanıb 2-ci qrup əlil kimi Yeniyol kəndinə qayıdandan sonra hətta uzun illər Özbəkistan respublikasının, Sırdərya vilayətində ticarət sistemində işləyib və böyük ad-san qazanıb. Soyuducu Kombinatının uzun illər direktoru olub. Üç dəfə Sırdərya vilayətinin deputatı seçilib. Azərbayandan ora təhsil almağa gedənlərə də çoxlu köməkliklər edib. O, Qazaxıstanda, Qırğızıstanda, Özbəkistanda Azərbaycanın böyük təəssübkeşi idi.

***- Bəraət veriləndən sonra vətənə qayıtdınız. Həyatınızı yenidən qurmaq yəqin ki, çətin oldu.***

- Bəli. Babam Mikayıl kişi çox istəyirdi ki, biz doğma yerlərə qayıdaq. Ona görə də, Masallıya qayıtdıq. Həmin vaxtlar, yəni 1937- ci ildə bizim Masallıda iki mərtəbəli evimiz var idi. Həmin evi baxça, sonradan isə yaşayış evi etmişdilər. Amma babam həmin evə getmədi. Özümüzçün ayrıca ev tikdik. Orta təhsilimi Masallı şəhərindəki 1 saylı tam orta məktəbdə almışam. Məktəbdə də yaxşı oxumuşam. Həmin vaxtlar Masallıda idmanın futbol, voleybol, güləş növləri çox inkişaf etmişdi. Dərslərimi yaxşı oxumaqla yanaşı, həm də futbolla məşğul olurdum. Hətta rayonun yığma futbol komandasında da oynamışam. Bizə futbola, ümumiyyətlə, idmana maraq yaradan, Masallıda idman sahəsində böyük işlər görən müəllimimiz, Əməkdar məşqçi Məhbub Ağayev olub. O, çox yaxşı qapıçı idi. Sonra yunan-Roma güləşi ilə məşğul olmuşam. Məşqçimiz Azərbaycanın Əməkdar məşqçisi Nadir Ağayev olub. O da Masallıda güləşin bu növü üzrə böyük işlər görüb. Respublika və beynəlxalq arenalarda öz sözünü demiş idmançılar yetişdirib. Məktəbdə atletika və güllə atıcılığı üzrə də məşğul olmuşam. Bu sahələri də bizə müəllimimiz Sücaət Hüseynov sevdirib. Masallıdakı məşhur “Viləş” futbol komandasının baş məşqçisi, Azərbaycan Respublikasının Əməkdar məşqçisi Çingiz Həşimov da bizə futbolu çox sevdirib. Özü də çox yaxşı futbolçu olub. İdmana bağlı olduğuma görə, orta məktəbi bitirəndən sonra 1972-ci ildə sənədlərimi böyük həvəslə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna verdim. 1977-ci ildən bu günə kimi ali təhsilli mütəxəssis kimi idman sahələrində çalışıram. Əvvəlcə, Bakı şəhər Xalq Maarif şöbəsində işə başlamışam. “Məhsul” İdman Cəmiyyətində baş təlimatçı kimi öz işimi davam etdirmişəm. Sonra da “Neftçi” İdman Cəmiyyətində idman idarəsinin rəisi olmuşam. 1993-cü ildə də “Zenit” İdman Cəmiyyəti Respublika Şurasının sədri seçilmişəm. 2007-ci ilin aprel ayının 18-də idman sahəsindəki xidmətlərimə görə, Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə mənə Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi fəxri adı verilib. Milli Olimpiya Komitəsinin üzvüyəm.

***- “Zenit” Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyi yaradılan gündən böyük uğurlara sahib olub. Bu uğur görülən işin bəhrəsidir. Yəqin ki, heç nə asan başa gəlməyib?!***

- Hər bir işin çətinlikləri var, eləcə də bizim. Amma heç vaxt ruhdan düşməmişik. Qazandığım təcrübələrin sayəsində, işlərimizi qura bilmişik. “Zenit” İdman Cəmiyyətinin Sumqayıtda və Gəncədə şəhər şuraları fəaliyyət göstərir. Hər iki şəhərdə idmanın sərbəst, yunan-Roma güləşi, cüdo və boks idman növləri inkişaf edir. Bizim qurumumuz kütləviliyə xidmət edən təşkilatdır. Görülən işlərin məntiqi nəticəsi olaraq idmançılarımız respublikadaxili yarışlarla yanaşı, beynəlxalq turnirlərdə də nəticələr qazanırlar. İşlədiyim dövrdə 6 nəfər Azərbaycanın Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi fəxri adına layiq görülüb. Bundan başqa “Tərəqqi” medalı, Əməkdar məşqçi və bir sıra fəxri adlar və diplomlar alan mütəxəssislərimiz də olub.

Bu gün biz fəxr edirik ki, dünya çempionatının mükafatçısı, Avropa çempionu, Rio-2016 Yay Olimpiya Oyunlarının bürünc medalçısı Cəbrayıl Həsənov “Zenit” İdman Cəmiyyətinin yetirməsidir. Bundan başqa Əfqan Xaşalov, Turan Bayramov, Elmira Qurbanova və bu kimi bir sıra titullu idmançılarımız var. Bütün bu işlər kollektiv işin məhsuludur. Əgər məşqçi-müəllimlərimiz işlərini düzgün qurmasalar, sözsüz ki, bu gün bu nəticələr, belə istedadlı idmançılarımız olmazdı. Mən məşqçilərimizdən razıyam. Biz heç bir klubun və cəmiyyətin idmançıları ilə heyətimizi gücləndirmək fikrində deyilik. Lakin “Zenit”dən müxtəlif klublara gedən idmançılarımız az olmayıb. Onlardan bir neçəsi vaxtilə bizim sıralarımızı tərk edib, digər klublara keçiblər. Amma məşqçilərimiz həmin idmançıların üzərində illərlə zəhmət çəkiblər. Hazırda yeni perspektivli idmançılarımız var. Çalışırıq ki, idmançılarımızın beynəlxalq yarışlarda iştirakını təmin edək.

***- Ömrünü idmana sərf edən bir mütəxəssis kimi Azərbaycan idmanının bugünkü inkişafını necə xarakterizə edərdiniz?***

- Hər bir məsələ haqqında danışmaq üçün, gərək, fakt olsun. 10 milyon əhalisi olan Azərbaycan xalqının idman sahəsində bu gün dünyada böyük nəticələri var. Azərbaycan idmançıları dünya və Avropa miqyaslı beynəlxalq turnirlərdə, Olimpiya Oyunlarında uğurla çıxış edirlər. Ölkəmiz I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, Formula 1 kimi mötəbər idman yarışlarına, habelə müxtəlif idman növləri üzrə dünya və Avropa çempionatlarına uğurla ev sahibliyi edir. Əgər Azərbaycan təşkilatçı ölkə kimi bu nüfuzu qazanmasa idi, belə bir mötəbər yarışlar ölkəmizdə keçirilməzdi. Bir sözlə, bu gün ölkəmizdə idmana və idmançılara dövlətimiz tərəfindən diqqət və qayğı göstərilir. Düşünürəm ki, idmançılarımız da onlara olan etimadı layiqincə doğruldurlar. İnanıram ki, Azərbaycan idmanı bundan sonra da dünyada böyük uğurlar əldə edəcək.



***- Bir neçə gün əvvəl 65 yaşınızı qeyd etdiniz. Hiss olunur ki, belə ələmətdar günləri təmtəraqla qarşılamırsınız.***

- Bəli. Təmtəraqlı ad günlərini sevimirəm. Sonuncu dəfə 50 yaşımı təntənəli keçirmişəm. Lakin ailə üzvlərim və mənə yaxın olan dostlarım doğum günümü daim diqqətdə saxlayırlar. Hətta hərdən təkid edirlər ki, hər hansı bir məclis qurub, ad günümü onlarla birlikdə qeyd edim. İnanın ki, bunun tərəfdarı deyiləm. Tanrıdan hər zaman hər şeyin yaxşısını diləmişəm. Uca Tanrıdan təkcə özüm üçün heç nə istəmirəm. Süfrədəki ruzi-bərəkət Tanrının bizə yetirdiyidir. Buna görə biz Tanrıya şükür etməliyik. Gözəl ailəm və dostlarım var. Mən onların əhatəsində özümü daha xoşbəxt və gümrah hiss edirəm.

***- Deyirlər ki, zəhmətkeş insanların asudə vaxtı olmur. Bu fikirlə razılaşırsınızmı?***

- Üç övladım və 9 nəvəm var. Sevda adlı nəvəm Moskva Dövlət Universitetini bitirib. İlham adlı nəvəm isə Rusiya prezidenti yanında Xalq Təsərrüfatı və Dövlət Xidməti Akademiyasında təhsil alır. Fazil, Mətin, Nadir, Aynurə və Səid orta məktəbdə oxuyurlar. Ən kiçik nəvəmin adı Həqiqətdir. O da həkim olmaq arzusu ilə yaşayır. Mən istirahətimi nəvələrimlə edirəm. Çalışıram ki, boş vaxtlarım olan kimi nəvələrimlə oynayım, onlarla xoş vaxt keçirim. Fürsət düşən kimi dəyərli dostlarımla görüşüb, bir-birimizlə hal-əhval tuturuq. Naşükür insan deyiləm, həyatımdan razıyam. Hər birimiz bu həyatda müvəqqəti qonağıq. Onsuz da bir gün bu həyatdan gedəcəyik. Gərək dünyadan köçəndə də özümüzlə yalnız xoş əməllər aparaq.

***- Fazil müəllim, ilk baxışdan çətin xarakterli bir insan təsiri bağışlayırsınız. Lakin Sizinlə ilk təmasdan sonra səmimiyyətiniz bütün bu fikirləri tamamilə alt-üst edir.***

- Sözün əsl mənasında heç nəyə güzəştə getmirəm. Xasiyyətim çətindir. Övladlarıma heç bir güzəşt etməmişəm. Yaxın bildiyim insanların yalançı, riyakar olmasına göz yuma bilmərəm. Sözümün sahibiyəm, belə insanlara da böyük hörmətim var. Əgər belə halla rastlaşsam, onlardan uzaqlaşıram. Ailəmi də möhkəm təməl üzərində qurmuşam. Övladlarım mənim istədiyim kimi, yetişiblər. Onlar vaxtilə idmanla məşğul olublar.

Böyük oğlum Fizuli həvəskar şəkildə olsa da cüdoya maraq göstərib. Ortancıl oğlum İlqar sərbəst güləş, kiçik oğlum Vüqar isə peşəkar şəkildə cüdo ilə məşğul olublar. Həm İlqar, həm də Vüqar idman ustasıdırlar. Hazırda isə müxtəlif sahələrdə çalışırlar. Bir sözlə, tələblərim və istəklərim yerinə yetirilməlidir. Bunların hamısı aldığım tərbiyədən irəli gəlir. Hər zaman gənc nəsilin təlim və tərbiyəsi diqqətimi çəkib. İstərdim cəmiyyətimizdə sağlam düşüncəli bir gələcək nəsil yetişsin. Hər birimiz bunun üçün əlimizdən gələni əsirgəməməliyik.

***- Arzular insanı yaşadan stimuldur. Hər bir istəksə insan həyatını daha maraqlı edir. Fazil müəllim həyatda daha hansı arzusunun həyata keçməsini qarşıya məqsəd qoyub?***

- 65 yaşıma qədər arzularla yaşamışam. Onların həyata keçməsi üçün çox çarpışmışam. Çətinliklərə və uğursuzluqlara baxmayaraq, ruhdan düşməmişəm. Əksinə belə vəziyyətdə daha da mübariz olub, hadisələrə soyuqqanlı yanaşmışam. Həyatda heç nə asan əldə olunmur. Asan qazanılan nailiyyətlər müvəqqəti olur. Arzularım təkcə ətrafımdakılara aid deyil. İstəyirəm ki, ölkəmiz təkcə idman sahəsində deyil, digər sahələrdə də daim inkişafda olsun. Arzular heç vaxt tükənmir. Həmişə Allaha dua edirəm ki, xalqımıza, dövlətimizə əmin-amanlıq bəxş etsin, millətimiz xoş günlər yaşasın.

***- Fazil müəllim, Sizi ələmətdar yubiley münasibətilə “Olimpiya dünyası” qəzetinin və çoxsaylı oxucularımız adından təbrik edirik.***

- Sizin qəzetiniz çoxsaylı oxucu kütləsinə malikdir. Redaksiya heyətinin hər bir üzvünə böyük hörmətim var. Təşəkkür edirəm ki, belə bir xoş gündə məni unutmamısınız. Hər zaman var olun!

***Anar Əhmədov,***
***Azər Əlizadə***

*"Zenit" Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyinin xidmət sahəsinə daxil olan müəssisə və təşkilatların Azərbaycan Respublikasının "Dövlət Müstəqilliyi Günü"nə həsr olunmuş XXI Respublika Spartakiadası davam edir.*

Stolüstü tennis yarışlarında isə Aviasiya İşçiləri Hİ RK-nın komandası birinci olub. Metropoliten İşçiləri Hİ ikinci, Müdafiə Sənayesi İşçiləri Hİ RK-nın komandası isə üçüncü olub.

Hİ RK-nın komandası bütün rəqiblərindən üstün olub. Avtomobil Nəqliyyatı və Yol Təsərrüfatı İşçiləri Hİ RK və Metropoliten İşçiləri Hİ komandası ilk üçlükdə yer alıblar.

# XXI Respublika Spartakiadası davam edir







Qeyd edək ki, yarışların proqramına 10 idman növü (futbol, voleybol, daşqaldırma, kəndirdartma, stolüstü tennis, üzgüçülük, dama, nərd, şahmat, güllə atıcılığı) daxildir. Qəzetimizin əvvəlki saylarında futbol və voleybol yarışlarının yekunları barəsində məlumat vermişik.

Artıq spartakiada çərçivəsində keçirilən kəndirdartma, stolüstü tennis, daşqaldırma və üzgüçülük üzrə yarışlara yekun vurulub.

Kəndirdartma üzrə yarışlarda birinci yerə Müdafiə Sənayesi İşçiləri Hİ RK-nın komandası layiq görülüb. Metropoliten İşçiləri Hİ və Aviasiya İşçiləri Hİ RK-nın komandaları isə müvafiq olaraq, ikinci, üçüncü yerlərə sahib çıxıblar.

Spartakiada çərçivəsində keçirilən daşqaldırma yarışlarında isə Avtomobil Nəqliyyatı və Yol Təsərrüfatı İşçiləri Hİ RK-nın komandası birinci yeri tutub. Metropoliten İşçiləri Hİ ikinci, Müdafiə Sənayesi İşçiləri Hİ RK-nın komandası isə üçüncü yerə sahib çıxıb.

Spartakiadanın üzgüçülük yarışlarında da qaliblər müəyyənləşib. Bu idman növü üzrə keçirilən yarışlarda Aviasiya İşçiləri

Məlumat üçün bildirək ki, spartakiadanın keçirilməsində əsas məqsəd zəhmətkeşlərin sağlamlığının möhkəmləndirilməsi, onların bədən tərbiyəsi və idman məşğələlərinə cəlb edilməsini təmin etmək, müəssisə və təşkilatların fəhlə və qulluqçularının asudə vaxtını səmərəli keçirməkdən ibarətdir.

XXI Respublika Spartkiadasına noyabrın 22-də yekun vurulacaq.

## Sumqayıt çempionatına yekun vurulub

Paralimpiya İdman Kompleksində Sumqayıt şəhərinin 70 illik yubileyinə həsr edilmiş pnevmatik tapançadan güllə atıcılığı üzrə çempionat keçirilib. Çempionatda şəhərin ali, orta ixtisas, peşə liseyləri və gənclər təşkilatlarının ümumilikdə 8 komandası qalib adı uğrunda mübarizə aparıb. Gərgin və maraqlı idman mübarizəsi şəraitində keçən yarışda Sumqayıt Musiqi Kollecinin komandası birinci olub. 3 nömrəli Peşə Liseyinin kollektivi yarışı ikinci, Sumqayıt Texniki Kollecinin tələbələri isə üçüncü yerdə başa vurublar.

Yarışın qalib və mükafatçıları Sumqayıt Şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən fəxri fərman, medal, hədiyyə və kubok ilə təltif olunublar.



## Badminton üzrə Azərbaycan çempionatı təşkil olunacaq

Noyabrın 20-23-də Bakıda 1 nömrəli idman liseyinin nəzdindəki badminton zalında Azərbaycan çempionatı keçiriləcək.

Beş kateqoriya üzrə keçiriləcək turnirdə 1 oyunçu 3 kateqoriyada iştirak edə bilər. Çempionat Olimpiya sistemi üzrə 1-4 yerləri təyin etməklə keçiriləcək. Yarışlar 3 mərhələ üzrə oynanılacaq.

Yarışda bütün kateqoriyalar üzrə ilk üç yeri tutacaq idmançılar Gənclər və İdman Nazirliyi və Azərbaycan Badminton Federasiyası tərəfindən diplom və medallarla təltif olunacaqlar.

Oyunların idarə olunması Gənclər və İdman Nazirliyi və Azərbaycan Badminton Federasiyası tərəfindən təsdiq olunmuş hakimlər kollegiyasına həvalə olunacaq. Azərbaycan çempionatının keçirilməsində məqsəd şəhər və rayonlarda badmintonun yayılmasına və inkişafına nail olmaq, perspektivli badmintonçuları aşkar etmək, beynəlxalq yarışlar üçün milli komandanın heyətini müəyyənləşdirməkdir.



## Vüqar Həşimovun adını daşıyan klub Avropa kuboku uğrunda mübarizə aparacaq

Vüqar Həşimov Şahmat Fondu mərhum şahmatçının adını daşıyan klub təsis edib. "Vüqar Həşimov" klubu ilk dəfə Monteneqroda keçiriləcək klublar arasında Avropa kuboku turnirində Azərbaycanı təmsil edəcək. Sərxan Həşimovun rəhbəri olduğu komandanın heyətində üçqat Avropa çempionu Rauf Məmmədov, beynəlxalq qrossmeysterlər Vüqar Əsədli, Ülvü Sadıqov, beynəlxalq usta Anar Allahverdiyev, 14 yaşlılar arasında dünya çempionu Aydın Süleymanlı, beynəlxalq usta Əhməd Əhmədzadə və ukraynalı qrossmeyster Nataliya Buksa yer alıblar. Noyabrın 9-dan 17-dək keçiriləcək yarış 7 turdan ibarət olacaq.

# Ölkə birinciliyinin yeni qalibləri




Bikini fitnes və mens fizik üzrə Azərbaycan kuboku, klassik bodibildinq və bodibildinq üzrə ölkə birinciliyi keçirilib.

"Elektra Events Hall"da baş tutan yarışda Bakı, Sumqayıt, Gəncə və Naxçıvandan 40-dan artıq atlet birincilik uğrunda mübarizə aparıb.

Bikini fitnes yarışlarında Məryəm Əlizadəqirib bütün rəqiblərini qabaqlayaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Kişilərin mens fizik yarışında boyu 170 santimetrədək idmançıların yarışında Xaliq Həsənov qızıl medal qazanıb. Muxtar Qasımlı boyu 176 santimetrədək atletlərin mübarizəsində fərqlənib. Boyu 176 santimetrdən yuxarı olanların mübarizəsində Əli Qurbanlı birinci olub. Muscular mens fizik yarışlarında Hidayət Məhərrəmli qalib adına sahib olub.

Klassik bodibildinq yarışlarında boyu 175 santimetrədək olan idmançıların mübarizəsində Şahin Cahangirov qızıl medal qazanıb. Boyu 175 santimetrdən yuxarı olanların mübarizəsində Xızrı Şəhriyar birinci pillədə qərarlaşıb.

Bodibildinq yarışlarında Murad İsayev (75 kq-dək), Mansur Şərifov (85 kq-dək) və Ceyhun Babakişiyev (85 kq-dan yuxarı) fərqləniblər.

Əli Qurbanlı mens fizikdə, Şahin Cahangirov klassik bodibildinqdə, Mansur Şərifov isə bodibildinqdə mütləq çempionluğa sahib olublar.



# Mövsümün son cıdır yarışı başa çatdı

Noyabrın 3-də Binə Atçılıq Mərkəzində Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) təşkilatçılığı ilə mövsümün sonuncu cıdır yarışı keçirilib. Yarışı federasiya prezidenti Elçin Quliyev də izləyib. Mövsümün bağlanış mərasimində ümumilikdə 6 cıdır və 5 yorğa qaçışı təşkil olunub. Yarış günü cıdır üzrə 40-dan artıq, yorğa atların qaçışı üzrə isə 50-yə yaxın at iştirak edir. "Qızıl Tac Kuboku" uğrunda cıdır yarışının yekununda ilk qaçışda 1600 metr məsafəyə birinci yerin qalibi "Batumi Ridinq Club"un sahibi olduğu "Frankel" ləqəbli at olub. Burada 2 yaş ingilis atları yarışıb. İkinci yarışda 3 yaş "Qarabağ" və Dilbaz atları mübarizə aparıb. Həmin qaçışda birinci yeri "Xan-Xan" AİK-in sahibi olduğu "Çalxanqala" ləqəbli at tutub. Üçüncü qaçış 3 yaş və yuxarı ərəb atlarının mübarizəsi ilə davam edib. Bu yarışda hamıdan güclü "Günay" AİK-in sahibi olduğu "Miss Dahes" ləqəbli at olub. Dördüncü qaçış 3 yaş İngilis atlarının 2000 metr məsafəyə yarışı ilə davam edib. Gərgin idman mübarizəsinin müşahidə olunduğu yarışda birinci yeri "Xan-Xan" AİK-in sahibi olduğu "Naxçıvan" ləqəbli at tutub. Beşinci qaçışda 4 yaş və yuxarı Qarabağ və Dilbaz atlarının "Əlvida Kuboku" uğrunda 2400 metr məsafəyə yarışında Ramiz İbrahimovun sahibi olduğu "Pəri" ləqəbli at qalib gəlib. Nəhayət cıdır mövsümünün son qaçışı 4 yaş və yuxarı ingilis atları arasında olub. Ramiz İbrahimovun sahibi olduğu "Kənanın Kralı" ləqəbli at bütün rəqiblərini geridə qoyaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Qeyd edək ki, bütün yarışların qaliblərinə ARAF-ın vitse-prezidenti Elşad Abbasov kuboklar və diplomlar verib.

Xatırladaq ki, yarışın ümumi mükafat fondu 24 min 500 AZN təşkil edib.

* * *

Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) təşkilatçılığı ilə Azərbaycanda ilk dəfə olaraq "Yorğa atların Azərbaycan çempionatı" təşkil olunub. Yarışda paytaxtdan və digər bölgələrdən 50-yə yaxın yorğa at iştirak edib. Yarışı federasiya prezidenti Elçin Quliyev də izləyib.

ARAF-ın prezidenti son illər ölkəmizdə atçılıq idmanının sürətlə inkişaf etdiyini bildirib. Federasiya prezidenti belə turnirlərin ölkəmizdə bu sahənin inkişafına mühüm töhfə verdiyini vurğulayıb, idmançılara uğurlar arzulayıb.

Çıxışdan sonra dərhal yarışa start verilib.

Altı yaş və daha yuxarı yorğa atların 1600 metr məsafəyə qaçışı ilə başlayan ilk yarış Sabirabaddan yarışa qatılan, sahibi Rəhman Nuriyev olan "Şimşək" ləqəbli at olub.

İkinci qaçış 3 və 4 yaş yorğalar arasında 1600 metr məsafəyə qaçış ilə davam edib. Bu qaçışın qalibi yarışa Gəncədən qatılan, sahibi Cavid Məmmədov olan "Qəmlo" ləqəbli at tutub.

Üçüncü qaçışda 9 yaş yorğa at öz gücünü sınayıb. Bu qaçışda isə, qalib çempionata Gəncədən qatılan, sahibi Müzadil Həsənov olan "Şəbdiz" ləqəbli at olub.

Dördüncü qaçışda 6 yaş və yuxarı yorğalar arasında 2400 metr məsafədə baş tutub. Qaçışın nəticəsinə görə birinci yerə Müşfiq Əliyevə məxsus "Kabus" ləqəbli at çıxıb.

Beşinci qaçış 7 yaş və yuxarı yorğa atların 3200 metr məsafəyə qaçışı ilə davam edib. Bu yarışın nəticəsində qalib çempionata Gəncədən qatılan, sahibi Samir Əliyev olan "Sapsan" ləqəbli at olub.

Nəhayət, "Yorğa atların Azərbaycan çempionatı"nın son qaçışı 7 yaş və yuxarı yorğa axta atların 3200 metr məsafəyə qaçışı ilə yekunlaşıb. Bu yarışda qalib yarışa Laçından qatılan, sahibi Xətai Ələkbərli olan "Qarabağ əsəri" ləqəbli at olub.

Yarışın qaliblərinə Azərbaycan Respublikası Atçılıq Federasiyasının prezidenti Elçin Quliyev və federasiyanın vitse-prezidenti Elşad Abbasov tərəfindən diplomlar və kuboklar təqdim edilib.

Altı qaçışdan təşkil olunan yorğa atların çempionatının ümumi mükafat fondu 7700 manat təşkil edib.

**Hekayə**

# Tanqonun ritmləri altında...



*Mobil İSMAYILOV*

***Ənənəvi "Novxanı-chess" beynəlxalq şahmat turnirinin başlanılmasına bir gün qalmış iştirakçıların qeydiyyatı aparılırdı. Munir Validi də ilk dəfə olaraq bu yarışda iştirakını rəsmiləşdirməkdən ötrü Novxanıya gəldi. Əvvəldən planlaşdırdığı kimi reytinq əmsalına uyğun olaraq güclü şahmatçıların təmsil olunduğu "A" kateqoriyasında deyil, "B" kateqoriyasında çıxış edəcəkdi. Elə yenicə blankı doldurmuşdu ki, döşəmədə sürtünmə səsinə arxaya çevrildi. Təxminən 30-32 yaşlı gənc bir qız cəld addımlarla çemodanını sürüyərək yaxınlaşıb Munirin yanında dayandı. Munir azacıq kənara çəkilib onu özündən qabağa buraxdı. O, gülümsəyərək təşəkkürünü bildirib sənədlərini təşkilat komitəsinin nümayəndələrinə təqdim etdi. Daha sonra həmin qız oteldə ona ayrılmış otağa qalxmadan bara yaxınlaşdı və nəsə sifariş edərək keçib divanda əyləşdi. Bir neçə dəqiqə keçmişdi ki, barmen buz əlavə edilmiş kokteyli gətirib qızın qabağına qoydu. Kokteyli içə-içə o, telefonda uzun-uzadı danışaraq hərdən ucadan gülürdü.***

Bayaqdan bunları müşahidə edən Munir ani olaraq fikirləşdi ki, xarici görünüşü supermodel təsiri bağışlayan qızın gözəlliyinə söz ola bilməz. Tanrı sanki ondan heç nə əsirgəməyib. Amma deyəsən, ünvanı səhv salıb. Gözəllik müsabiqəsində iştirak etmək əvəzinə, şahmat turnirinə gəlib. Yəqin, həm də yaxşı şahmatçıdır. Ətrafa nəzər salanda Munir gördü ki, orada olanların az qala hamısı həmin qıza baxır.

Nəhayət, o, qalxdı və yığılmış saçlarını açdı. Sarı, uzun, gur saçları kürəyini tutdu. Sonra liftə tərəf istiqamətləndi. Yerişi də çox incə idi.

Səhərisi gün turnirin təntənəli açılışından sonra birinci tura start verildi. Cəmi doqquz tur oynanılacaqdı. Xarici ölkələrdən xeyli şahmatçı gəlmişdi. Təbii ki, Azərbaycan şahmatçıları sayca üstünlük təşkil edirdi. Yarış yüksək səviyyədə təşkil olunmuşdu. Turnir otelin birinci mərtəbəsində keçirilirdi. İştirakçılara asudə vaxtın çox qalması, eləcə də səyahət, əyləncə proqramları nəzərə alınaraq turlar saat 11-də başlanırdı.

Munir ilk turda kobud səhvə yol verərək tez uduzdu. Və dərhal da, həmin o qızın stoluna yaxınlaşdı. Stolun kənarındakı məlumat vərəqində yazılmışdı: Vanda Ruziska, Çexiya Respublikası. Reytinq əmsalı da kifayət qədər yaxşı idi. Çexiyalı şahmatçının stolunun ətrafında gəzənlər, ayaq saxlayıb baxanlar heç də az deyildi.

Munir daha tez-tez Vandaya "baş çəkir", oyununu izləyirdi. Qız da hərdən başını qaldırıb qəribə baxışları ilə onu süzürdü. Onun yanan, oynaq gözləri var idi. Arabir yerindən qalxıb zaldan çıxanda, geyimi belini daha da incə göstərirdi. Gah plastik qabda su, gah da bir fincan kofe ilə qayıdıb oyununa davam edirdi.

Munir təzəcə stoldan aralanmışdı ki, Vandanın rəqibinin saatını dayandıraraq əlini ona tərəf uzatdığını gördü. Beləliklə, Vanda yarışa qələbə ilə başladı.

Munir hiss edirdi ki, Vandanı gözdən qaçırmayanlar, onunla tanışlığa can atanlar çoxdur. Əslində belə bir istək Munirdə də yaranmışdı.

Vanda isə yenə də kokteylini içdikdən sonra otağına qalxdı və axşamtərəfinə qədər gözə dəymədi. Saat 17:00-də növbəti turun püşkü divardan asıldı. İştirakçılar məlumat guşəsinin ətrafına toplaşıb püşkü nəzərdən keçirməyə başladılar. Tanış şahmatçılarla çay içərək söhbət edən Munir gözlərini liftə tuşlamışdı. Elə bu zaman Vanda pilləkənlərlə düşərək birbaşa giriş qapısına yönəldi. Bilinirdi ki, altdan çimərlik forması geyinib və dənizə gedir. Dəniz kənarında yerləşən otelin sahillə arası 70-80 metr olardı. Yenə çoxlarının baxışları ona dikilsə də, Vanda cəld addımlarla gözdən itdi.

Yerli şahmatçıların oteldə qalmağı nəzərdə tutulmamışdı. Amma kim istəsəydi, endirimli qiymətlə oteldə də otaqla təmin oluna bilərdi.

Munir daha Vandanın qayıtmasını gözləməyib bir neçə yerli şahmatçı ilə şəhərə qayıtdı.

İkinci turda Munir heç-heçə təklifini həvəslə qəbul etdi və tələsik blanklara imza ataraq Vandanın oynadığı stola səmt aldı. Stolun ətrafı yenə də gediş-gəlişli idi. Munir də o tərəf bu tərəfə keçərək bir neçə dəfə yaxınlaşıb oyunu izləyirmiş kimi Vandanın başının üstündə durdu və ona lap yaxından baxdı. Vandada qadın cazibədarlığına aid olan hər şey vardı. Onun bədənində zəriflik, gözlərində ehtiras gizlənmişdi. Arada başını qaldırıb yenə də gülümsəyirdi.

Daha sonra Munir bufetə yaxınlaşıb portağal şirəsi sifariş etdi. Bir qədər keçmişdi ki, Vanda zaldan çıxdı və onun yanından keçərkən ayaq saxlayıb dedi:

- Sən bura şahmat oynamağa gəlmisən, yoxsa mənim oyunuma baxmağa? O qədər başımın üstündə dayandın ki, çaşdırdın məni, çətinliklə heç-heçə etdim.

Ani olaraq duruxan Munir ayağa qalxdı və ona da əyləşməyi xahiş etdi. Vanda ofisianta dondurma və kokteyl istədiyini bildirdi. Onlar təbii ki, söhbətə şahmatla başladılar. Məlum oldu ki, Vanda Bakıya ilk dəfədir gəlir. Məqsədi həm Azərbaycanı görmək, həm də şahmat reytinqini artırmaqdır. Munir də məlumat verdi ki, "Novxanı" beynəlxalq turniri hər il keçirilsə də, birinci dəfədir ki, bu yarışa qoşulur. Məzuniyyətdə olduğu üçün vaxt fürsətindən yararlana bilib. Oyun praktikasını yaxşılaşdırmaq və elə də yüksək olmayan reytinq əmsalını artırmaq niyyətindədir. Söhbətin bu yerində Vanda yumorundan da qalmadı:

- Hər turda mənim başımın üstündə dayanmaqla çətin ki, reytinqini artırasan.

- Sənin oyununa baxmıram, sənə baxıram.

- Onda lap pis, - deyə Vanda güldü. Amma əslinə qalsa, sənin kimi həvəskar şahmatçı olmaq daha yaxşıdır. Ruhi rahatlığını təmin etmək, fikirlərini, qəlbini lüzumsuz qayğılardan, həyəcanlardan qorumaq çox vacibdir. Texnologiyanın inkişafı yeni həyat tərzi gətirmişdir. İndiki nəsil robotlaşır. Peşəkar şahmatçılar da həmçinin. İnternet zamanında hər şey asanlaşıb. Məncə, keçmişdə şahmat daha maraqlı olub. Şahmatçılar da fərqli təsir bağışlayıblar. O ki, qaldı mənə. Şahmatla uşaqlıqdan məşğul oluram. Hazırda daimi məşqçim yoxdur. İndi qız idmançılarının çoxu öz fərdi məşqçiləri ilə roman yaşayır. Əgər daimi məşqçin varsa, əksər hallarda bu baş verir. Şahmatda da belədir. Razısan mənimlə?

Munir çiyinlərini çəkdi.

- Şadam ki, məni anlayırsan, - deyə Vanda söhbətinə davam etdi: - Universitet bitirmişəm, kimyaçıyam. Bura Bakını görmək arzusunda olan anamla gəlməliydim. Son məqamda anamın mənə qoşulması alınmadı. Bu turnirdən sonra Moskvada da nəzərdə tutduğum yarışda iştirak edib Praqaya qayıdacağam. İndi isə Bakı ilə tanışlığa başlamaq üçün getmək istəyirəm.



Vanda Munirin israrlı xahişinə baxmayaraq sifarişinin pulunu özü ödədi. Munir də şəhərə qayıdacağını bildirib dedi:

- İcazə ver, yerli şahmatçı kimi bələdçilik edim. Gəzintinin maraqlı keçməsi, təəssüratın zəngin olması üçün köməyim yerinə düşər.

Vanda əvvəl tərəddüd etsə də, sonradan razılaşdı. Qərara aldılar ki, bir saatdan sonra görüşsünlər.

Orta boylu, cüssəsi böyük olmayan Munirin xoşagələn sifəti var idi. Danışığı, baxışları, təbəssümü, geyimi ilə diqqəti cəlb edirdi. Yaşı qırxı keçsə də, gəncliyinə xas yaraşıqlı xarici görünüşü qalmışdı.

Bakı ilə tanışlıq istənilən turist, qonaq üçün "İçərişəhər"dən başlanır. Munir də ənənəni pozmadı. Birbaşa "Qız qalası"na getdilər. Xeyli gəzintidən sonra axşamtərəfi Munir qonağını "Karvansara" restoranına dəvət etdi. Sifarişin pulunun bərabər ödəniləcəyi barədə Vanda əvvəlcədən şərt kəsdi.

Qırmızı şərab içmək istədiyini bildirən Vanda dedi:

- Qırmızı şərab göz xəstəliklərinin qarşısını alır, görmə qabiliyyətini yüksəldir. Eynək taxdığın üçün bu məsləhəti yadda saxla. Gözlərin isə çox mənalı görünür. Elə eynəyin arxasından da. Mən çox hallarda gözlərə baxanda qəlbləri, duyğuları görürəm. Ağıllı baxışların var. Yaxşı, gəl içək.

Munir isə onun özünə məxsus sehrindən, cazibəsindən heç nə içəcəyinin fərqində də deyildi.

- Mən gözlənilməz tryukları sevirəm. Hətta bu tryuklar uğursuz olsa belə, yenə çəkinmirəm, risk edirəm. Bu da valideynlərimdən mənə irsən keçib. Şahmat oynayanda da, imkan yarananda risk edirəm. Çünki heç-heçələri sevmirəm. Ya qələbə, ya da məğlubiyyət. Hə, tez-tez gülümsə, dünyanın gözəlliklərini görəcəksən, - deyib bokalını Munirə tərəf uzatdı: - Yaşasın xoş hisslər, deyib-gülmək, əyləncələr, bir də şahmat!..

Vanda Munirə tost deməyə imkan vermirdi.

- Məni dəli hesab eləmirsən? Eləsən də olar. Hamıya ağıllı görünməkdən zəhlətökən şey yoxdur.

Hər ikisi bir-birinə qoşulub güldülər.

- Sən gözəlsən, istedadlısan, çoxları sənə həsəd aparır. Turnirdə hamının gözü səndədir. Hətta televiziyalardan gələnlər, jurnalistlər də heç kimə əhəmiyyət vermədən sənə yaxınlaşıb müsahibə götürmək istəyirlər. Sanki səndən başqa qadın şahmatçı yoxdur. Uğurlar hələ qabaqdadır. Deməli, tezliklə səni qrossmeyster görəcəyik, - deyə nəhayət Munir də ilk tostunu dedi.

- Təkcə istedad uğur qazanmağa, şöhrətin yüksəkliklərinə qalxmağa kifayət etmir. İnadkarcasına çalışmaq də lazımdır. Şanslı adamların həyat yolu isə başqadır.

- Əgər həyatda bir şeyi həddən artıq çox, dəlicəsinə istəsən, bu arzu mütləq gerçək olacaq. Əsas odur ki, belə istək, inam, enerji olsun. Onda arzularına çatacaqsan, - deyə Munir fikrini tamamladı.

- Nə isə, fəlsəfə açdıq deyəsən. Planımda var ki, varlı ərəb şeyxinin oğluna ərə gedim. Arzudan söhbət açmısan, bu da mənim istəyim. Amma görürəm ki, Bakıda da varlılar çoxdu. Seçimimi dəyişə də bilərəm, - mənalı tərzdə Munirə baxıb gülən Vanda yenə də yumoruna davam etdirdi.

Ani pauzadan sonra: - Axına qoşulmaq, özünü taleyin ixtiyarına buraxmaq hamısından yaxşıdır. Bilmirik ki, həyatın sonrakı axarı bizi hansı səmtə aparacaq, - bayaqdan çox çılğın, şən təsir bağışlayan Vanda bir az ciddiləşdi və kofeyə keçməyin məqamı çatdığını dedi.

.... Restorandan çıxıb Novxanıya qayıtdılar. Vanda sahildə gəzmək həvəsində olduğunu bildirdi. Ətrafda adamlar heç də az deyildi. Əksəriyyəti də şahmatçılar idi. Arada dondurma yeyib yenə də gəzməyə başladılar. Artıq dəniz kənarında sükut var idi. Elə bir sükut ki... Yalnız suyun zəif səsini hiss etmək olurdu. Bir az keçmişdi ki, meh də duyuldu. Bu gözəllikdən zövq aldığını gizlətməyən Vanda ayaq saxlayıb üzünü Munirə çevirdi:

- Restoranda milli rəqsləriniz çox xoşuma gəldi. Mənim ən çox sevdiyim rəqs isə tanqodur. İstəyirəm ki, sabah məni tanqo oynanılan bir yerə aparasan. Özüm də oynayaram. Əminəm ki, rəqs etməyimi bəyənəcəksən.

Onun gözləri yenə də "oynayırdı".

Munir mütləq belə bir rəqs məkanı tapacağına söz verdi. Daha sonra onlar xudafizləşib ayrıldılar.

Üçüncü turda oyunu tez bitirməklə qələbə qazanan Vanda otelin girişindəki kafedə Muniri gözləməyə başladı. Munir isə bu dəfə daha inamlı oynamasına baxmayaraq uzun sürən oyunda yenə də heç-heçə ilə kifayətləndi. Vandanı qələbə münasibəti ilə təbrik edən Munir:

- Başının üstündə duranlar, sağa-sola keçənlər yenə də çox idi, - deyə söz atdı.

- Hə, məni çox qıcıqlandırırlar. Belə davam etsə, hakimlərə etirazımı bildirməyə məcburam. Odur, bax, televizionşiklər də gəldilər. Özü də bizə yaxınlaşırlar. Bəlkə, bir şey fikirləşəsən. Nə çəkilişə, nə də müsahibə verməyə həvəsim yoxdur.

Munir tez yerindən qalxıb onları qarşılayaraq söhbət etməli oldu. Bundan sonra operator kənardan bir neçə kadr götürüb aralandı.

Günortadan sonra Munir Bakı ilə tanışlığı davam etdirməyi, axşam isə tanqo rəqsinə görə nəzərdə tutduğu restorana getməyi təklif etdi. Dəvətdən məmnun qalan Vanda paltarını dəyişmək üçün otağına qalxdı.

Munir isə dənizə tərəf getdi. Dəniz kükrəyib coşur, dalğalar bir-birini qova-qova sahilə cumur, sonra da parçalanıb damlalara çevrilir, havaya qalxaraq narın qumluğa səpələnirdi. Bu, Xəzri küləyiydi...

*(ardı var)*

# Oktyabr

## Ayın yekunu "Olimpiya dünyası"nın təqdimatında

### Gimnastika

Tbilisidə idman gimnastikası üzrə "Medea Cup" beynəlxalq turniri keçirilib. Yarışda ölkəmizi yığma komandamızın üzvləri Anar Həsənov, Rəsul Əhmədzadə və Ramin Dəmirov təmsil ediblər. İdmançılarımızdan Anar Həsənov sərbəst hərəkətlərdə, Rəsul Əhmədzadə isə turnikdə birinci olublar. A.Həsənov dəstəli at ilə çıxışına görə gümüş, R.Əhmədzadə isə bürünc medal qazanıb. Onların komanda yoldaşı R.Dəmirov isə halqalarda ikinci pillədə qərarlaşsa da, paralel qollarda üçüncü yeri tutub.

### Güləş

Rusiyanın Yakutsk şəhərində sərbəst güləş üzrə Dmitri Korkinin xatirə turniri keçirilib. Pəhləvanlarımız ənənəvi yarışda 4 medal qazanıblar. Təmsilçilərimizdən Abubakr Abakarov (79 kq) və Aleksandr Qostiyev (86 kq) gümüş, Pərviz İbrahimov (57 kq) ilə Hacımurad Hacıyev (74 kq) isə bürünc medal qazanıblar.

* * *

Dağıstanın Xasavyurt şəhərində sərbəst güləş üzrə qitələrarası kubok yarışları keçirilib.Yarışda ölkəmizi gənclərdən ibarət yığmamızın məşqçiləri Rövşən Hacıyev və Əşrəf Əliyevin rəhbərliyi altında təmsil edən Gitinoməhəmməd Hacıyev (70 kq) bürünc medal qazanıb.

* * *

Tbilisidə sərbəst və yunan-Roma güləşi üzrə veteranlar arasında dünya çempionatı keçirilib. Mundialda 3 yunan-Roma güləşçimiz fəxri kürsüyə qalxıb. Müxtəlif yaş qruplarında Məmməd Əliyev (78 kq) və Musa Mirzəyev (130 kq) gümüş, Rövşən İsmayılxanlı (130 kq) isə bürünc medal qazanıblar.

* * *

Rusiyanın Kemerovo şəhərində sərbəst güləş üzrə "Şaxtaçı şöhrəti" beynəlxalq turniri keçirilib. Yarışda çıxış edən iki güləşçimiz fəxri kürsüdə yer alıb. Təmsilçilərimizdən İsmayıl Abdullayev (74 kq) gümüş, İslam Abuyev (125 kq) isə bürünc medala sahib çıxıblar.

### Cüdo

Estoniyanın paytaxtı Tallinndə cüdo üzrə Avropa açıq kuboku yarışı keçirilib.Tokio Olimpiadasına lisenziya xalları verən turnirdə 35 ölkədən 292 cüdoçu yarışıb. Azərbaycanı təmsil edən Aleksandra-Larisa Florian (57 kq) bu yarışda bürünc medala sahib çıxıb.

* * *

Mərakeşdə veteran cüdoçular arasında dünya çempionatı keçirilib. 49 ölkədən 1183 (1006 kişi, 177 qadın) idmançının mübarizə apardığı çempionatda 15 cüdoçu ilə iştirak edən komandamız 5 qızıl, 1 gümüş və 1 bürünc medal qazanıb. Yığma komandamızın aktivinə qızıl medalları Fərhad Rəcəbli (M-7, 90 kq), Məmməd Məmmədov (M-1, 73 kq), Mübariz Cəfərov (M-4, 81 kq), Rəsul Səlimov (M-2, 90 kq) və Elxan Rəcəbli (M-2, 100 kq) yazdırıblar. Digər idmançılarımızdan Vüqar Babayev (M-2, 66) gümüş, Müşfiq Cəfərov (M-5, 73 kq) isə bürünc medala sahib çıxıb.

* * *

Mərakeşdə gənclər arasında cüdo üzrə dünya çempionatı keçirilib. Yarışda 81 ölkədən 500-dən çox cüdoçunun iştirak etdiyi yarışda Azərbaycan idmançıları da qüvvələrini sınayıblar. Komandamız çempionatda 11 (9 oğlan, 2 qız) cüdoçu ilə təmsil olunub. Çempionatda 60 kq çəki dərəcəsində mübarizə aparan idmançımız Əhməd Yusifov yalnız finalda məğlub olaraq, gümüş medala sahib çıxıb. Digər cüdoçumuz İbrahim Əliyev (66 kq) isə bürünc medala yiyələnib.

* * *

Sloveniyanın Qradeç şəhərində cüdo üzrə "Koroşka" açıq beynəlxalq turniri keçirilib. Yarışda ölkəmizin qadın cüdoçuları da iştirak ediblər. 40 kq çəki dərəcəsində yarışan Aydan Vəliyeva və 52 kq çəki dərəcəsində mübarizə aparan Səbinə Əliyeva bütün rəqiblərinə qalib gələrək turnirin qalibi olublar. Digər təmsilçilərimiz Nigar Şahməmmədova (44 kq), Zeynəb Məmmədova (52 kq), Aytac Qardaşxanlı (57 kq) gümüş, Nərmin Əmirli (+70 kq) isə bürünc medal qazanıblar.

* * *

Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə "Böyük dəbilqə" turniri keçirilib.Yarışda 10 kişi və 5 qadın cüdoçu ilə təmsil olunan Azərbaycan millisi 3 medal qazanıb. Komandamızın heyətində Orxan Səfərov (66 kq) və Zelim Kotsoyev (100 kq) gümüş, Uşangi Kokauri (+100 kq) isə bürünc medala sahib çıxıb.

### Ağırlıqqaldırma

Rumıniyanın paytaxtı Buxarestdə 20 və 23 yaşadək gənc ağırlıqqaldıranlar arasında Avropa birinciliyi keçirilib. Medallar uğrunda yarışda Azərbaycan yığma komandasının da üzvləri də qüvvəsini sınayıblar. Komandamızın üzvü Mərziyyə Məhərrəmova 23 yaşadək gənc atletlərin yarışında 49 kiloqram çəki dərəcəsində dördüncü yeri tutub. Digər təmsilçimiz Rüstəm Qasımov yaşı 20-dək olan gənc atletlərin 67 kq çəki dərəcəsində 9-cu olub. Komandamızın digər üzvü Elşad Şərifov yaşı 23-dək olan atletlərin mübarizəsində 73 kiloqram çəki dərəcəsində birdənqaldırma hərəkətində 123 kq nəticə ilə 7-ci yeri tutub. E.Şərifov təkanla qaldırmada 160 kq çəkini qaldıraraq, bu hərəkətdə Avropa birinciliyinin bürünc medalına sahib çıxıb.Təmsilçimiz ümumilikdə 283 kq (123 kq+160kq) nəticə ilə yekunda 4-cü olub. Komandamızın digər üzvlərindən Əliş Nəzərov yaşı 20-yə qədər olan atletlərin 109 kq çəki dərəcəsində yarışda 9-cu yeri tutub. İsmayıl Qurbanov isə yaşı 20-yə qədər olan atletlərin +109 kiloqram çəki dərəcəsində 11-ci olub.

### Taekvondo

İspaniyanın Marina Dor şəhərində gənclər arasında taekvondo üzrə Avropa birinciliyi keçirilib. İdmançılarımız Avropa birinciliyini 3 bürünc medalla başa vurub. Komandamızın medallarını Səyyad Dadaşov (51kq), Cavad Ağayev (68 kq) və Taleh Süleymanov (78 kq) qazandırıb.

* * *

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən Şağan Olimpiya İdman Kompleksində taekvondo üzrə 3-cü beynəlxalq açıq paytaxt turniri keçirilib.Turnirdə Azərbaycan, İran, Özbəkistan və Rusiyadan 250-dən çox idmançı iştirak edib. Maraqlı mübarizə şəraitində keçən yarışda ümumi komanda hesabında birinci yeri Azərbaycan komandası tutub. Özbəkistan ikinci, İran isə üçüncü pillədə qərarlaşıb.

### Karate

Rusiyanın paytaxtı Moskvada Karate1 Premyer Liqa turniri keçirilib. Yarışda iştirak edən Azərbaycan milli komandası 3 medal qazanıb.

Təmsilçilərimizdən Rafael Ağayev (-75 kq) və İrina Zaretska (-68 kq) qızıl, Nuranə Əliyeva (-50 kq) isə bürünc mükafata sahib olub.

* * *

Karate üzrə 16-17 yaşlılardan ibarət Azərbaycan milli komandasının üzvü Polina Qurenko (53 kq) Çexiyanın Plzen şəhərində keçirilən uşaq, yeniyetmə və gənclər arasında 20-ci açıq beynəlxalq turnirdə iki qızıl medal qazanıb.14-15 yaşlı yeniyetmələr arasında ikiqat Avropa çempionu P.Qurenko həm öz yaş kateqoriyasında, həm də 21 yaşadək idmançılar arasında bütün rəqiblərini məğlub edib.

* * *

Çilinin paytaxtı Santyaqoda yeniyetmə və gənclər arasında dünya çempionatı keçirilib. Yarışda iştirak edən Azərbaycan karateçiləri 4 medal qazanıblar. 16-18 yaşlı gənclərdən ibarət komandamızın üzvləri Hüseyn Məmmədli (61 kq) gümüş, Sultan Hüseynov (55 kq), Hüseyn Hüseynzadə (76 kq) və Polina Qurenko (53 kq) bürünc medala sahib olublar. Təsəlliverici görüşlərdə iştirak edən Namiq Quliyev (+76 kq), Hümmət Baxşəliyev (67 kq) və Murad Hacızadə (+84 kq) isə medalçılar arasına düşə bilməyiblər.

### Sambo

Özbəkistanın Daşkənd şəhərində yeniyetmə və gənclər arasında sambo üzrə dünya birinciliyi keçirilib. Azərbaycan milli komandası mötəbər yarışda 4 medal qazanıb. Elvin Bağırov (56 kq), Kənan İsmayılov (60 kq), Hacıbala Cəbrayılov (70 kq) və Toğrul Salmanov (87 kq-dan yuxarı) fəxri kürsünün üçüncü pilləsində yer alıblar.

### Şahmat

Teymur Rəcəbov Azərbaycanın şahmat tarixində ilk dəfə dünya kubokunun qalibi adını qazanıb. Qrossmeysterimiz Rusiyanın Xantı-Mansiysk şəhərində keçirilən turnirin finalında çinli Liren Dinqi məğlub edərək, bu uğura yiyələnib. Qrossmeysterlər finalda 10 görüş keçiriblər. Qalibin kimliyinə tay-breyk qarşılaşmalarında aydınlıq gəlib. Bilts partiyasında ardıcıl iki görüşdə qələbə qazanan T.Rəcəbov turnirin qalibi olub.

* * *

Hindistanda 14, 16 və 18 yaşlı oğlanlar və qızlar arasında şahmat üzrə dünya çempionatı keçirilib. 14 yaşlıların yarışına ilk turlardan liderlik edən A.Süleymanlı sonuncu turda Qazaxıstan təmsilçisi Sultan Amanzolu məğlub edərək, dünya çempionu adını qazanıb.

### Velosiped

Türkiyənin Edirne şəhərində Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) 1.2 kateqoriyalı "Fatih Sultan Mehmet Kırklareli" turu keçirilib. 130 kilometrlik marşrutu ilk 3 pillədə başa vuranlar arasında Azərbaycan yığma komandasının üzvü Samir Cəbrayılov da var. Məsafəni 3 saat, 9 dəqiqə, 36 saniyəyə bitirən S.Cəbrayılov fotofinişə əsasən ikinci nəticə göstərib. Yığmamızın digər üzvü Elçin Əsədov da lider qrupun içində yer alıb və 5-ci olub.

### Kikboksinq

Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda kikboksinqin WAKO versiyası üzrə dünya çempionatında Azərbaycan komandası 9 medala sahib çıxıb.Təmsilçilərimizdən Eduard Məmmədov və Ramal Aslanov bütün rəqiblərini məğlub edərək qızıl medal qazanıblar. Məhəmməd İmanov, Telman Məhərrəmov yalnız finalda uduzaraq gümüş medalla kifayətləniblər. Nurlan Məmmədov, Emil Hümbətov, Anar Məmmədov, Asəf Aslanov və Fuad Həşimi üçüncü pillədə qərarlaşıblar.



### Futbol

Azərbaycanın "Qarabağ" klubu UEFA Avropa Liqasının 2019-2020-ci il mövsümünün qrup mərhələsinin ikinci turu çərçivəsində səfərdə Lüksemburqun "Düdelanj" klubu ilə qarşılaşıb. Lüksemburqdakı "Jozi Bartel" stadionunda keçirilən görüş komandamızın inamlı qələbəsi ilə yekunlaşıb - 1:4. "Qarabağ"ın heyətində Abdulla Zubir, Miçel, Riçard Almeyda və Dani Kintana fərqləniblər.

* * *

2020-ci il Avropa çempionatının seçmə mərhələsi çərçivəsində Azərbaycan millisi səfərdə Macarıstan komandası ilə qarşılaşıb. Budapeştdə, "Groupama Arena"da keçirilən oyunda komandamız minimal hesabla məğlub olub-1:0.

* * *

UEFA Avropa Liqasının 2019-2020-ci illər mövsümünün qrup mərhələsinin üçüncü turu çərçivəsində Azərbaycanın"Qarabağ" komandası Tofiq Bəhramov adına Respublika stadionunda Kiprin APOEL klubunu qəbul edib. Gərgin idman mübarizəsi şəraitində keçən görüş heç-heçə başa çatıb - 2:2. Komandamızın heyətində Dani Kintana və Ailton Silva fərqləniblər.

### Pencak-silat

Pencak-silat üzrə Hollandiyanın Haaqa şəhərində açıq Avropa çempionatı keçirilib. Çempionatda uğurla iştirak edən Azərbaycan idmançıları 4 medal qazanıblar.Gənclərin yarışında çıxış edən Xalid Əfəndiyev və Fidan Əlizadə bütün rəqiblərinə qalib gələrək, fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Böyüklərin mübarizəsində Elxan Cəfərov ikiqat Avropa çempionu adına sahib olub. Abdulla Abdullazadə isə yarışı üçüncü pillədə başa vurub.

### Stolüstü tennis

Azərbaycanın stolüstü tennisçiləri Şimali Kiprdə təşkil olunan beynəlxalq turnirdə uğurla çıxış ediblər. Stolüstü tennisçilərimiz komanda yarışında ikinci yeri tutublar.

Ölkəmizi şəxsi yarışlarda təmsil edən Emin Məmmədov gümüş, Kənan Pənahov bürünc medal qazanıblar. Qoşa yarışlarda Emin Məmmədov - İlkin Abdulov cütlüyü gümüş, Kənan Pənahov - Xaliq Becanov cütlüyü isə bürünc medala layiq görülüblər.

### Qılıncoynatma

Sablya üzrə milli komandamızın lideri Anna Başta Tbilisidə keçirilən "Satellite" seriyalı beynəlxalq turnirdə qızıl medal qazanıb. Qrup mərhələsini 5 qələbə ilə başa vuran idmançımız ardıcıl olaraq 4 görüşdə də rəqiblərini üstələyərək, bu mükafata sahib çıxıb. Digər sablyaçılarımız isə turniri medalsız başa vurublar.

* * *

Türkiyənin Konya şəhərində qılıncoynatma üzrə 14 yaşadək şpaqaçılar arasında açıq turnir keçirilib.14 yaşlı qız şpaqaçıların yarışında iştirak edən Xədicə Həsənli turnirin bürünc medalını qazanıb. Turnirdə iştirak edən digər təmsilçilərimiz mükafatçılar sırasına düşə bilməyiblər.

### Badminton

Misirin paytaxtı Qahirə şəhərində badminton üzrə "International Series" kateqoriyalı "Egypt International 2019" turniri keçirilib. Yarışda iştirak edən Azərbaycan badmintonçusu Edi Reski Dviçayo həlledici görüşdə çexiyalı rəqibini məğlub edərək turnirin qızıl medalını qazanıb. Dviçayo bu qələbə ilə aktivinə 2500 reytinq xalı yazdırıb.

* * *

Əlcəzairdə badminton üzrə "Algeria International 2019" beynəlxalq turniri keçirilib. Yarışda iştirak edən Azərbaycan badmintonçusu Edi Reski Dviçayo gümüş medala sahib çıxıb. Digər badmintonçumuz Ezmi Qovimuramadhoni isə mübarizəni erkən dayandırıb.

### Triatlon

Azərbaycanın triatlon yığmasının üzvü Rostislav Pevtsov Portuqaliyanın Funşal şəhərində təşkil olunan sprint üzrə Avropa kuboku finalında qızıl medal qazanıb.Təmsilçimiz 58 idmançının mübarizə apardığı yarışı 52 dəqiqəlik nəticə ilə başa vurub. Qadınların mübarizəsində isə komandamızın üzvü Kseniya Levkovskaya 1 saat 2 dəqiqə 47 saniyəlik nəticə ilə 10-cu olub.

# FUTBOL

## Çempionlar Liqası: səfərdə uduzanlar evdə qalib gələ biləcək?



Bu gün UEFA Çempionlar Liqasının 4-cü turunun oyunlarına start veriləcək. İlk oyun günündə 16 komandanın iştirakı ilə 8 matç keçiriləcək. Günün ən tez başlayan iki görüşündə “Barselona” “Slaviya” ilə üz-üzə gələcək. Ötən tur bu komandaların Çexiyadakı görüşündə çətin qələbə qazanan ispaniyalılar növbəti mərhələyə vəsiqəni həll etməyə çalışacaqlar. Həftəsonu La Liqada “Levante”yə 1:3 hesablı məğlubiyyətdən sonra Ernesto Valverdenin rəhbərlik etdiyi komandanın praqalılarla görüşü maraqla gözlənilir. Saat 21:55-də başlayacaq növbəti görüşdə “Zenit” “Leyptsiq”i sınağa çəkəcək. Soyuq Sankt-Peterburqda keçiriləcək qarşılaşmada “Zenit” Almaniyadakı məğlubiyyətin əvəzini çıxmaq əzmindədir. Günün maraqla gözlənilən matçı “Siqnal İduna Park”da təşkil olunacaq. Əvvəlki turda Milan səfərindən məğlubiyyətlə qayıdan Dortmund “Borussiya”sı “İnter”ə 0:2 hesablı məğlubiyyətə görə cavab verməli olacaq. Əks halda Almaniya təmsilçisi növbəti mərhələyə çıxmaq şansını bir qədər çətinləşdirə bilər. Sabah keçiriləcək 8 qarşılaşma da futbolsevərlərin diqqətindən yayınmayacaq. Maraqla gözlənilən görüşlər arasında “Bavariya”-”Olimpiakos” matçını xüsusi qeyd etmək olar. Yunanıstanda keçirilən görüşdə sona qədər mübarizə aparan “Olimpiakos”un eyni tərzdə oynayacağı gözlənilir. Ötən şənbə Bundesliqada “Ayntraxt”a 1:5 hesabı ilə uduzan “pivəçilər”in baş məşqçi Niko Kovaçla sağollaşması və həmin məğlubiyyətin eyforiyası pireylilərin xeyirinə ola bilər. D qrupunda “Lokomotiv” “Yuventus”u qonaq edəcək. Turində 47 dəqiqə hesabda irəli olub, sonradan iki top buraxaraq, 3 xalı əldən verən “dəmiryolçular” isə Moskvada özünü göstərmək istəyəcək.





Bu turda keçirilən hər bir görüş Çempionlar Liqası kimi nüfuzlu turnirin baxımlı olmasına zəmin yaradır. Hər matçda qeydə alınan gözlənilməz nəticələr bir daha sübut edir ki, bu yarışda yalnız çempionlar oynayır.

**5 noyabr**

**E qrupu**

00:00 Napoli (İtaliya) - Zalsburq (Avstriya) (ilk oyun 3:2)

00:00 Liverpul (İngiltərə) - Genk (Belçika) (ilk oyun 4:1)

**F qrupu**

21:55 Barselona (İspaniya) - Slaviya (Çexiya) (ilk oyun 2:1)

00:00 Borussiya D (Almaniya) - İnter (İtaliya) (ilk oyun 0:2)

**G qrupu**

21:55 Zenit (Rusiya) - Leyptsiq (Almaniya) (ilk oyun 1:2)

00:00 Lion (Fransa) - Benfika (Portuqaliya) (ilk oyun 1:2)

**H qrupu**

00:00 Çelsi (İngiltərə) - Ayaks (Hollandiya) (ilk oyun 1:0)

00:00 Valensiya (İspaniya) - Lill (Fransa) (ilk oyun 1:1)

**6 noyabr**

**A qrupu**

00:00 Real (İspaniya) - Qalatasaray (Turkiyə) (ilk oyun 1:0)

00:00 P S J (Fransa) - Brügge (Belçika) (ilk oyun 5:0)

**B qrupu**

21:55 Bavariya (Almaniya) - Olimpiakos (Yunanıstan) (ilk oyun 3:2)

00:00 Srvena Zvezda (Serbiya) - Tottenhem (İngiltərə) (ilk oyun 0:5)

**C qrupu**

00:00 Atalanta (İtaliya) - Mançester Siti (İngiltərə) (ilk oyun 1:5)

00:00 Dinamo (Xorvatiya) - Şaxtyor (Ukrayna) (ilk oyun 2:2)

**D qrupu**

21:55 Lokomotiv (Rusiya) - Yuventus (İtaliya) (ilk oyun 1:2)

00:00 Bayer (Almaniya) - Atletiko (İspaniya) (ilk oyun 0:1)



## Turun mərkəzi oyununda sıfırlar dəyişmədi

Futbol üzrə Azərbaycan Premyer Liqasında X turun oyunları keçirilib. Həftənin açılış oyununda ikinci sıradakı “Neftçi” lider “Qarabağ”ı qəbul edib. “Bakcell Arena”da təşkil olunan matçda hesab açılmayıb. Turun ikinci oyununda “ASCO Arena”da “Səbail” və “Keşlə” komandaları üz-üzə gəliblər. Baş hakim Rəvan Həmzəzadənin idarə etdiyi görüşdə qapılara top vurulmayıb.

Turun növbəti oyununda “Zirə” komandası “Sumqayıt”ı qəbul edib. Zirə İdman Kompleksinin stadionunda keçirilən qarşılaşma 2:2 hesabı ilə başa çatıb. Görüşdə ilk qol 3-cü dəqiqədə vurulub. “Zirə”nin heyətində Mfo Kqasvane fərqlənib. Qonaqlar 30-cu dəqiqədə hesabı bərabərləşdiriblər. Peyman Babayi penalti zərbəsini dəqiq yerinə yetirib. “Sumqayıt” ilk hissənin sonlarında üstün oyun sərgiləsə də, hesabda önə keçə bilməyib. Birinci hissə bu hesabla yekunlaşıb. Görüşün 58-ci dəqiqəsində paytaxt təmsilçisinin yeni transferi Riçard Qadze “Zirə”ni yenidən hesabda önə keçirib. Oyunun 82-ci dəqiqəsində isə “Sumqayıt”dan Əmir Ağayev bərabərlik qolunun müəllifi olub.

Turun sonuncu oyununda Qəbələ şəhər stadionunda eyniadlı komanda “Sabah”ı qəbul edib. Görüş qonaqların qələbəsi ilə yekunlaşıb - 2:1. Hesabı 43-cü dəqiqədə “Qəbələ”nin hücumçusu Davit Volkov açıb. Lakin fasilədən sonra “Sabah” iki qol vurub. Oyunun 54-cü dəqiqəsində Cavid İmamverdiyev, 73-cü dəqiqədə isə Hendrik Ekşteyn fərqlənib. Bu, 10-cu turda heç-heçə ilə yekunlaşmayan yeganə oyun olub. “Sabah” səfər qələbəsi sayəsində xallarını 10-a çatdırıb. “Qəbələ” isə 6 xalla sonuncudur. Turnir cədvəlinə aktivində 26 xalı olan”Qarabağ” klubu başçılıq edir. “Neftçi” 18 xalla ikinci, “Keşlə” isə 16 xalla üçüncü pillədə qərarlaşıb.

### *Kovaç, Tüdor getdi, növbə Emerinindir*



“Bavariya” baş məşqçisi Niko Kovačla yollarını ayırıb. 48 yaşlı mütəxəssislə müqavilə qarşılıqlı razılaşma əsasında ləğv edilib. Komandanın Bundesliqanın 10-cu turunda səfərdə “Ayntraxt”a 1:5 hesabı ilə uduzmasından sonra bu qərar verilib. Münhen təmsilçisini Çempionlar Liqasında “Olimpiakos” və Bundesliqada “Borussiya” ilə oyunlara Kovaçın köməkçisi Hans Flikin çıxaracağı bildirilib. Qeyd edək ki, komanda hazırda ölkə çempionatında 18 xalla 4-cü pillədə qərarlaşıb. Xatırladaq ki, N.Kovaç 2018-ci ildən “Bavariya”da işləyirdi.

* * *

“Arsenal”ın idman direktoru Raul Sanlyei “Mançester Yunayted”in sabiq baş məşqçisi Joze Mourinyo ilə birgə nahar edib. London klubunun rəhbərliyi komandanın hazırkı baş məşqçisi Unai Emeri ilə futbolçular arasında münasibətlərin pisləşməsindən, həmçinin ünsiyyətdə dil probleminin olmamasından narahatdır. İspan məşqçinin artıq bir-iki oyunluq limitinin qaldığı da iddia edilir.

“Arsenal”ın hazırda İngiltərə Premyer Liqasına yaxşı bələd olan nüfuzlu məşqçi axtarışında olduğu, Mourinyonun planlarının isə klub rəhbərliyini razı saldığı bildirilir.



* * *

İspaniyanın “Selta” klubu baş məşqçisi Fran Eskribla yollarını ayırıb. Bu barədə La Liqa təmsilçisinin rəsmi saytı məlumat yayıb. 54 yaşlı mütəxəssisin müqaviləsinə xitam verilib.



Qeyd edək ki, Eskriba mart ayından “Selta”nı çalışdırırdı. Komanda hazırda La Liqada 12 turdan sonra 18-ci sıradadır.

* * *

A seriyası təmsilçisi “Udineze” baş məşqçisi İqor Tudorla yollarını ayırıb. Bu barədə klub saytı məlumat yayıb. Komandanın ölkə çempionatında uğursuz çıxışı səbəbindən bu addım atılıb. Qeyd edək ki, İ.Tudor 2018-ci ilin aprelindən İtaliyada işləyirdi. Xatırladaq ki, “Udineze” A seriyasında 10 turdan sonra 10 xalla 14-cü pillədə qərarlaşıb.

# Dünya idmanı



**Üfüqi**

1. Formula 1-in texniki direktoru, 2. Cıdır yarışlarının keçirildiyi arena. 4. Fransada idman nəşri. 5. Qılıncoynatma üzrə altıqat Olimpiya çempionu. 10. Braziliyada məşhur stadion. 13. Olimpiya Oyunlarında ən çox qızıl medal qazanan almaniyalı çempion Reynar...14. Sapporo-1972 Qış Olimpiya Oyunlarında yarışların keçirildiyi məkan. 16. Bundesliqa təmsilçisi. 18. “Spartak”, “olimpiada”, “Kreml”. 19. “Qəbələ” futbol klubunun yeni transferi.

**Şaquli**

3. Gimnastikada növ. 6. Azərbaycanda idman kanalı “... Sport”. 7. Alverbildə keçirilən Olimpiya Oyunlarının məşəlini alovlandıran futbolçu. 8. İtaliya avtomobil konserni, Formula 1 komandası. 9. Bir futbolçunun eyni matçda vurduğu dörd qol. 11. Atletikada onnövçülük. 12. Su idman növlərindən biri. 15. Rusiyanın hokkey klubu. 17. İranın “Zenit”də çıxış edən futbolçusu.

## Ronaldo klouna çevrildi

Portuqaliyalı futbolçu Kriştianu Ronaldo “Halloween” bayramı üçün xüsusi hazırlıq görüb. İdmançı şərəfini qoruduğu “Yuventus” klubunun bazasına maraqlı geyimdə gəlib. O, biri, digərini kürəyində aparan iki qorxunc kloun paltarı geyinib. Futbolçu bu geyimi ilə klub yoldaşlarını qorxudaraq, əylənmək istəyib. İdman bazasına gəldikdə isə, onun qarşısına yarımmüdafiəçi Miralem Pryaniç çıxıb. Lakin Pryaniçi, qarşılaşdığı mənzərə narahat etməyib. O, Ronaldonun bu geyiminə gülərək, onunla zarafat edib.





## Kliçko rekord üçün rinqə qayıdır



WBO, IBF, IBO və WBA versiyaları üzrə keçmiş dünya çempionu Vladimir Kliçko gələcək planları barədə danışıb. Ukraynalı boksçu deyib: “Rinqə yenidən qayıtmaq istəyirəm. Hər şey mümkündür. Qayıtmağımın səbəbi, kiminləsə döyüşmək deyil, rekord qazanmaq məqsədi daşıya bilər. Əgər Corc Formen 45 yaşında çempion olubsa, Kliçko niyə bunu bacarmasın?”

Qeyd edək ki, 1994-cü ildə 45 yaşlı Corc Formen, WBA və IBA versiyaları üzrə dünya çempionu titulunu qazanıb. Bununla da, o, ən yaşlı dünya çempionu kimi boks tarixinə düşüb. Formenin bu rekordunu 9 il əvvəl yarımağır çəki dərəcəsində Bernard Hopkins yeniləyib. Lakin Corc yenə də ağır çəki üzrə ən yaşlı çempion kimi tarixdə qalıb.

Xatırladaq ki, Vladimir Kliçko idman karyerasını 2017-ci ildə bitirib. 43 yaşlı ukraynalı idmançının keçirdiyi 69 döyüşdən aktivində 64 qələbə (53 nokaut) və 5 məğlubiyyət var.

## Zlatan hamını aldatdı

“Los-Anceles Qelaksi”nin futbolçusu Zlatan İbrahimoviçin İspaniyaya qayıdışı ilə bağlı video paylaşmağının səbəbi məlum olub. İsveçli hücumçu “İnstaqram” hesabında yayımladığı videoda İspaniyaya qayıdacağını zarafatla deyib. Əslində isə o, İspaniyada kazinolardan birinin reklam siması olub və buna görə izləyiciləri ilə zarafat edib. 38 yaşlı forvard bunu Tvitter səhifəsində açıqlayıb. Qeyd edək ki, İbrahimoviç 2008/2009 mövsümündə “Barselona”da oynayıb. O, 2018-ci ildən ABŞ klubunda çıxış edir.


olimpnews.az - sizin saytınız





## Formula 1-də yeni konsepsiya

Formula 1 2021-ci il mövsümü üçün avtomobil konsepsiyasını təqdim edib. Prezident Jan Todt, Formula 1 rəhbəri Çeyz Keri, idman direktoru Ross Braun və onun texniki şöbəsinin rəhbəri Nikolas Tombasis 2021-ci il üçün tənzimləmələrlə bağlı mətbuat konfransı keçirib. Həmin konsepsiyalar qısa müddət ərzində sosial şəbəkələrdə böyük izləmə rekordu qırıb.

## Pike: “Qapıları hər zaman açıq saxlayıram”

“Barselona”nın müdafiəçisi Jerard Pike gələn il Tokioda keçiriləcək Yay Olimpiya Oyunlarında İspaniya millisinin şərəfini qorumaq ehtimalının olduğunu vurğulayıb. “Həyatda nəyin necə olacağını heç kəs bilmir. İştirdim, belə bir mötəbər idman tədbirində iştirak edim. Olimpiya çempionu olmaq hər bir idmançının arzusudur. Təklif gəlsə, bilin ki, mən dərhal müsbət qarşılayacağam. Mən qapıları hər zaman açıq saxlayıram”, - deyə Pike bildirib.

Milli Olimpiya Komitəsinin kollektivi iş yoldaşları Elxan Səmədzadəyə, anası

**Ofelya xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

“Olimpiya dünyası” qəzetinin kollektivi Elxan Səmədzadəyə, anası

**Ofelya xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!


Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir. Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.


DİQQƏT! Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.


*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-74-19